RSM

RSM Azerbaijan

Demirchi Tower 21st floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan

T +994(12) 480 4571
F +994(12) 480 4563

www.rsm.az

**MÜSTƏQİL AUDİTORUN XÜSUSİ MƏQSƏDLİ HESABATI**

Dövlət İmtahan Mərkəzi Publik Hüquqi Şəxsin və onun törəmə müəssisələrinin Səhmdarlarına və İdarə heyətinə:

***Rəy***

Biz Dövlət İmtahan Mərkəzi Publik Hüquqi Şəxsin və onun törəmə müəssisələrinin (bundan sonra "Qrup") 31 dekabr 2018-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında ilkin hesabatı və həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında ilkin hesabatlarından, eləcə də əsas uçot siyasətinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan əlavə edilmiş ilkin maliyyə hesabatlarının auditini aparmışıq. Bu maliyyə vəziyyəti haqqında ilkin hesabat Qrupun Maliyyə Hesabatlarının Beynəlxalq Standardlarına keçidi üçün hazırlanmışdır.

Bizim rəyimizcə, "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının ilk dəfə tətbiq edilməsi" adlı 1 saylı MHBS əsasında MHBS-in necə tətbiq edilməsini, həmçinin, 31 dekabr 2019-cu il tarixinə MHBS-ə uyğun hazırlanmış maliyyə hesabatlarının ilk tam toplusu rəhbərlik tərəfindən hazırlandığı zaman qüvvədə olması gözlənilən standart və şərhlər və qəbul edilməsi gözlənilən qaydalar haqqında rəhbərliyin fərziyyələrini təsvir edən 3-cü Qeyddə göstərilən əsasa uyğun olaraq hazırlanmış ilkin maliyyə hesabatları, 31 dekabr 2018-ci il və 01 yanvar 2018-ci il tarixlərinə Qrupun maliyyə vəziyyəti və 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə əməliyyatlarının nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından əks etdirir.

***İzahedici paraqraf***

Rəyimizdə şərt bildirmədən biz diqqəti MHBS-ə uyğun yekun maliyyə hesabatlarına çevrilənə qədər konsolidə edilmiş ilkin maliyyə hesabatlarında düzəlişlərin aparıla bilməsinin səbəblərini izah edən konsolidə edilmiş ilkin maliyyə hesabatlarına dair 3-cü Qeydə cəlb edirik. Bundan əlavə, diqqətinizi bu fakta cəlb edirik ki, MHBS-ə uyğun olaraq, yalnız müqayisəli maliyyə məlumatı və izahlı qeydlər daxil olmaqla konsolidə edilmiş ilkin maliyyə hesabatlarının tam toplusu Qrupun maliyyə vəziyyətinin, əməliyyatlarının nəticələrinin və pul vəsaitlərinin hərəkətinin MHBS əsasında düzgün əks etdirilməsini təmin edə bilər.

RSM

***Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik hazırkı konsolidə edilmiş ilkin maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidə edilmiş ilkin maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərlik Qrupun fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Rəhbərlik bu prinsipə riayət edərkən "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarını nəzərə alır. Həmin Qanunun 5-ci və 9-cu maddələrində müvafiq olaraq qeyd olunur ki, publik hüquqi şəxs müflis elan oluna bilməz və publik hüquqi şəxsin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Qrupun konsolidə edilmiş ilkin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

***Konsolidə edilmiş ilkin maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidə edilmiş ilkin maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq ilkin maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti ilkin maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.

RSM

- Konsolidə edilmiş ilkin maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və ilkin maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.
- Konsolidə edilmiş ilkin maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və Qrupun biznes fəaliyyəti ilə bağlı kifayət qədər audit sübütlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXS
## 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ
## KONSOLİDƏ EDİLMİŞ İLKİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2018-ci il | 01 yanvar 2018-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Cari aktivlər*** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 7 | 2,454,461 | 1,741,950 |
| Banklarda müddətli depozitlər | 8 | 309,000 | 608,425 |
| Ticarət və digər debitor borcları | 9 | 55,384 | 63,914 |
| Avans ödənişləri | 10 | 228,301 | - |
| Mal-material ehtiyatları | 11 | 2,093,474 | 1,748,796 |
| Digər aktivlər | | 2,900 | - |
| **Cəmi cari aktivlər** | | **5,143,520** | **4,163,085** |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar | 12 | 10,124,179 | 4,731,093 |
| Qeyri-maddi aktivlər | 12 | 8,114,455 | 8,202,935 |
| Əmlak və avadanlıqlar üçün ödənilmiş avanslar | | 1,236,000 | 236,000 |
| Təxirə salınmış vergi aktivləri | | 80,703 | 37,477 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **19,555,337** | **13,207,505** |
| **CƏMİ AKTİVLƏR** | | **24,698,857** | **17,370,590** |
| **ÖHDƏLİKLƏR** | | | |
| ***Cari öhdəliklər*** | | | |
| Banklardan alınmış borc vəsaitləri | 13 | 11,748 | - |
| Təxirə salınmış gəlir | 14 | 83,907 | 109,879 |
| Ticarət və digər kreditor borcları | 15 | 110,110 | 163,569 |
| Digər öhdəliklər | 16 | 7,661 | 127,742 |
| Mənfəət vergisi öhdəliyi | | 174,094 | 110,247 |
| **Cəmi cari öhdəliklər:** | | **387,520** | **511,437** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Banklardan alınmış borc vəsaitləri | 13 | 20,619 | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **20,619** | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **408,139** | **511,437** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 17 | 1,000,000 | 1,000,000 |
| Əmlak,avadanlıqlar və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi | | 2,156,205 | - |
| Digər kapital | 18 | 6,838,931 | 5,828,316 |
| Bölüşdürülməmiş mənfəət | | 14,295,582 | 10,030,837 |
| **CƏMİ KAPİTAL** | | **24,290,718** | **16,859,153** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **24,698,857** | **17,370,590** |

Rəhbərlik adından:

Məleykə Abbaszadə
Sədr

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

Fərhad Əsədov
Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

***AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXS***
***31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ İLKİN MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT***

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 Dekabr 2018-ci il |
|---|---|---|
| Əməliyyatlardan əldə edilən gəlir | 19 | 17,754,087 |
| Əməliyyat xərcləri | 20 | (11,594,292) |
| **Ümumi mənfəət** | | **6,159,795** |
| İnzibati xərclər | 21 | (1,552,084) |
| Dəyərsizləşmə üzrə zərər | | (398,232) |
| Digər xərclər | | (34,822) |
| Digər gəlirlər | 22 | 228,809 |
| **Əməliyyat gəliri** | | **4,403,466** |
| Faiz gəlirləri | | 70,645 |
| Faiz xərcləri | | (1,363) |
| **Vergidən əvvəlki gəlir** | | **4,472,748** |
| Mənfəət vergisi xərci | 23 | (208,003) |
| **Xalis mənfəət** | | **4,264,745** |
| Əmlak,avadanlıqlar və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi | | 2,156,205 |
| **Cəmi məcmu gəlir** | | **6,420,950** |

Rəhbərlik adından:

Məleykə Abbaszadə
Sədr

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

Fərhad Əsədov
Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

## *AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXS*
## *31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA İLKİN HESABAT*

| *Azərbaycan manatı ilə* | Qeyd | Nizamnamə kapitalı | Digər kapital | Yenidən qiymətləndirmə ehtiyatı | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2018-ci il** | | **1,000,000** | **5,828,316** | **-** | **10,030,837** | **16,859,153** |
| Digər kapitalda artım | 18 | - | 1,010,615 | - | - | 1,010,615 |
| Yenidən qiymətləndirmə üzrə ehtiyat | 12 | - | - | 2,156,205 | - | 2,156,205 |
| Dövr üzrə cəmi məcmu gəlir | | - | - | - | 4,264,745 | 4,264,745 |
| **31 dekabr 2018-ci il** | | **1,000,000** | **6,838,931** | **2,156,205** | **14,295,582** | **24,290,718** |

**Rəhbərlik adından:**

Məleykə Abbaszadə
Sədr

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

Fərhad Əsədov
Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ

## *AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ PUBLİK HÜQUQİ ŞƏXS*
## *31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ*
## *KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİN HƏRƏKƏTİ HAQQINDA İLKİN HESABAT*

| *Azərbaycan manatı ilə* | Qeyd | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | |
| İl üzrə vergidən əvvəlki gəlir | | **4,472,748** |
| Faiz xərcləri | | **1,363** |
| Amortizasiya xərci | 12 | **995,196** |
| Əsas vəsaitlərin və qeyri maddi aktivlırin silinməsi üzrə zərər | 12 | **34,823** |
| Qeyri-maddi aktivlərin dəyərsizləşməsi | 12 | **398,232** |
| Faiz gəlirləri | | **(70,645)** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **5,831,717** |
| *Əməliyyat aktiv və passivlərində artım* | | |
| Debitor borclarında azalma | | **8,530** |
| Avans ödənişlərində artim | | **(228,301)** |
| Mal-material ehtiyyatlarında artım | 11 | **(344,678)** |
| Digər vergi aktivlərində artım | | **(1,660)** |
| Digər aktivlərdə artım | | **(1,240)** |
| Kreditor və digər öhdəliklərdə azalma | | **(53,459)** |
| Təxirə salınmış gəlirdə azalma | | **(25,972)** |
| Digər öhdəliklərdə azalma | | **(120,081)** |
| ***Vergi və faizlərdən əvvəl əməliyyat fəaliyyətindən əldə edillən xalis pul vəsaitləri*** | | **5,064,856** |
| Ödənilmiş mənfəət vergisi | | **(187,382)** |
| Ödənilmiş faiz | | **(1,000)** |
| **Əməliyyat fəaliyyətlərindən daxil olan xalis pul vəsaitlər** | | **4,876,474** |
| **İnvestisiya fəaliyyəti** | | |
| Əmlak, tikili və avadanlıqların alınması | 12 | **(5,019,846)** |
| Qeyri-maddi aktivlərin alinması | 12 | **(556,806)** |
| Depozitlərin banklardan çıxarılması | | **300,000** |
| Alınan faizlər | | **70,070** |
| ***İnvestisiya fəaliyyətinə daxil olan xalis pul vəsaitləri*** | | **(5,206,582)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | |
| Digər kapitaldan daxilolmalar | | **1,010,615** |
| Borc götürülmüş vəsaitlərin qaytarılması | | **(1,536)** |
| Borc götürülmüş vəsaitlərdən daxilolmalar | | **33,540** |
| **Maliyyə fəaliyyətlərindən daxil olan xalis pul vəsaitləri** | | **1,042,619** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **712,511** |
| **Pul vəsaitləri və onların ekvivalentləri ilin əvvəlində** | | **1,741,950** |
| **Pul vəsaitləri və onların ekvivalentləri ilin sonunda** | | **2,454,461** |

**Rəhbərlik adından:**

Məleykə Abbaszadə
Sədr

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası

Fərhad Əsədov
Maliyyə və iqtisadiyyat şöbəsinin müdiri

15 aprel 2019-cu il
Bakı, Azərbaycan Respublikası